Səh. 2 "Kadr çatışmazlığı" – Azər Musaoğlu

Səh. 3 Səssiz gələn təhlükə – Hacı Bəkiroğlu

Səh. 5 Tətil – Binəli İslamoğlu

Səh. 6 Bala Muğanlının böyük oğlu – Mirzə Məmmədoğlu

Səh. 2 İnteqrasiya məsələsi – Cəlal Yadigarlı

Səh. 4 MƏKTƏBLƏRDƏ DƏRS SAATINI NİYƏ DİREKTOR BÖLÜR? – DƏRS SAATI BÖHRANI VƏ ÇIXIŞ YOLU

Səh. 7 Həyat bankı – Aytən Fətullayeva

İCTİMAİ QƏZET ❀ yeniyolqazeti@gmail.com ❀ "იენი იოლი" საზოგადოებრივი გაზეთი ❀ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

15 SENTYABR
2025-Cİ İL
№ 16 (233)

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

## OKTYABRIN 4-DƏ KEÇİRİLƏCƏK SEÇKİLƏRDƏ 4 AZƏRBAYCANLI NAMİZƏD MER VƏZİFƏSİ UĞRUNDA MÜBARİZƏ APARACAQ




Oktyabrın 4-də Gürcüstanda keçiriləcək bələdiyyə və mer seçkiləri ilə əlaqədar ölkə üzrə yaradılan 3051 seçki məntəqəsindən 2284-də səsvermə elektron texnologiyalardan istifadə etməklə, 767 seçki məntəqəsində isə ənənəvi qaydada keçiriləcək. Bu barədə Gürcüstan Mərkəzi Seçki Komissiyasının (MSK) mətbuat katibi Natia İoseliani brifinqdə məlumat verib.

Onun sözlərinə görə, seçki administrasiyası seçkilərə intensiv hazırlığı davam etdirir.

***"Tədris Mərkəzinin hazırladığı tədris planına əsasən rayon və məntəqə seçki komissiyalarında komissiya rəhbərləri, həm də komissiya üzvləri çoxmərhələli təlim keçirlər. Hazırlanmış kadrlar təbii ki, istər seçki gününə qədərki dövrdə, istərsə də seçki günü məntəqə seçki komissiyaları üçün çox vacibdir",*** – deyə İoseliani bildirib.

Onun sözlərinə görə, vahid seçici siyahıları, ilkin variantları və ya açıq variantları artıq çap olunaraq bütün məntəqə seçki komissiyalarında yerləşdirilib.

Qeyd edək ki, seçkilərdə dörd nəfər azərbaycanlı mer vəzifəsi uğrunda mübarizə aparacaq. Marneuli meri uğrunda hakim Gürcü Arzusu – Demokratik Gürcüstan Partiyasının namizədi **Daur İsmayılov**, Lelo – Güclü Gürcüstan Partiyasından **Əsəd Əliyev** və Bizim Gürcüstan Partiyasından **Əli Bədirov** mübarizə aparacaqlar.

Bolnisi meri uğrunda Lelo – Güclü Gürcüstan Partiyasının namizədi **Asəf Çıraqov** mübarizə aparacaq.

Bələdiyyə deputatı mandatı uğrunda isə mübarizə aparacaq azərbaycanlı namizədlərin sayı 100 nəfərə qədərdir.

Oktyabrın 4-də keçiriləcək yerli seçkilərdə ümumilikdə 12 partiya Tbilisi də daxil olmaqla 64 şəhər və rayon üzrə mer və sakrebulolara (məşvərətçi orqanlar) deputatlar seçəcəklər.

## TÜRKİYƏ VƏ GÜRCÜSTAN GƏNCLƏR SİYASƏTİ ÜZRƏ ƏMƏKDAŞLIQ MEMORANDUMU İMZALAYIB



Gürcüstanın Təhsil, Elm və Gənclər Nazirliyi ilə Türkiyə Cümhuriyyətinin Gənclər və İdman Nazirliyi arasında Əməkdaşlıq Memorandumu imzalanıb.

Sənədin əsas məqsədi gənclər siyasəti sahəsində tərəfdaşlığın gücləndirilməsi istiqamətində birgə təşəbbüslərin həyata keçirilməsidir.

Sənədi Gürcüstanın təhsil naziri Qivi Mikanadze və türkiyəli nazir Osman Aşkın Bakin imzalayıblar.

Qivi Mikanadze bildirib ki, yeni əməkdaşlıq strukturlaşdırılmış dialoq, birgə təşəbbüslər və strateji planlaşdırma yolu ilə Gürcüstan və Türkiyə arasında çoxillik tərəfdaşlığın dərinləşdirilməsi baxımından irəliyə doğru atılan daha bir addımdır.

Öz növbəsində, Osman Aşkın Bakin iki ölkənin nazirlikləri arasında uğurlu tərəfdaşlığa diqqət yönəldib və gürcü tərəfinə birgə gənclik proqramlarının inkişafına hazırlığı təsdiqləyib.

Qeyd olunub ki, memorandumun əsas istiqaməti Gürcüstan və Türkiyə gəncləri üçün birgə layihələrin həyata keçirilməsi, o cümlədən gənclər düşərgələrinin, forumların, konfransların, seminarların, tədris səfərlərinin və digər mühüm aktivliklərin təşkil edilməsidir. Bu da öz növbəsində gəncliyin inkişafı istiqamətində ikitərəfli əməkdaşlığın güclənməsinə kömək edəcək.

## GÜRCÜSTANIN SABİQ MÜDAFİƏ NAZİRİ HƏBS EDİLİB



Tbilisi Şəhər Məhkəməsi vəzifə səlahiyyətlərindən sui-istifadə və qanunsuz gəlirlərin leqallaşdırılmasında təqsirləndirilən sabiq müdafiə naziri Cuanşer Burçuladze barəsində həbs qətimkan tədbiri seçib. Bununla da hakim ittiham tərəfinin vəsatətini təmin edib.

Bundan əvvəl müdafiə tərəfi sabiq nazirin zaminə buraxılması ilə bağlı vəsatət qaldırsa da, hakim təmin etməyib.

Sabiq müdafiə naziri 1 milyon 593 min 212 lari məbləğində qeyri-qanuni və əsassız gəliri leqallaşdırmaqda ittiham olunur.

Cuanşer Burçuladzeyə qarşı Gürcüstan Cinayət Məcəlləsinin 194-cü maddəsinin 3-cü hissəsinin "c" bəndi və 332-ci maddəsinin 2-ci hissəsi, yəni, dövlət və ya siyasi vəzifə tutan şəxs tərəfindən vəzifə səlahiyyətlərindən sui-istifadə və qanunsuz gəlirlərin leqallaşdırılması ilə bağlı ittiham irəli sürülüb. Qeyd olunan əməl 9 ildən 12 ilədək azadlıqdan məhrumetmə ilə cəzalandırılır.



# "KADR ÇATIŞMAZLIĞI"

Azər MUSAOĞLU
azermusaoghlu@gmail.com

Sonra da şivən salırıq, gözümüzü yumub, ağzımızı geniş açaraq qışqırırıq ki, ay haray, ay həzərat, ay camaat, ay deputat, ay təhsil naziri, ay təhsil komitəsinin sədri, ay ombudsman, ay BMT, kadr çatışmır, Gürcüstandakı azərbaycandilli məktəblər kadr çatışmazlığı təhlükəsi ilə üz-üzədir. Üzümüzü Şərqə tutub bar-bar bağırırıq ki, eheeey, siz ey ordakılar, kadr çatışmır, arada bir Şimal-Qərb tərəfə də boylanın, dilimiz, məktəbimiz əldən gedir, yaşlı müəllimlər məktəbləri tutub durası deyillər, təəssüf ki, zaman əleyhimizə işləyir, müəllim olmayacaqsa məktəblərimiz bağlanacaq və sair, və ilaxır...

Boylanıb məktəblərimizə baxanda isə tamamilə fərqli mənzərə görürük. Görürük məktəblər müəllimlərimizin müharibə meydanına çevrilib – dərs saatı üstündə əməlli-başlı dava gedir. Bir müəllim digər müəllimin 1-2 saatını çırpışdırmaq, əlindən almaq üçün ölüm-qalım mübarizəsinə qatılıb. Vay halına deputatdan-zaddan adamın olmaya, vay halına məktəb direktoru ilə aran soyuq ola, vay halına adın müxalifət partiyası ilə birgə hallana – saatların heç vaxt artan deyil, azalacaq.

Dərs saatları bu qədər azdırsa, belə çıxır ki, müəllimlərin sayı çoxdur. Dərs saatına görə müəllimlər bir-birini qırırsa, belə çıxır ki, yaşlı müəllimlər məktəbləri tutub durası olublar. Dərs saatları hamıya çatmırsa, belə çıxır ki, kadr çatışmazlığı söhbəti yalandır.

Bir ara hökumət pensioner müəllimlərə öz istəkləri əsasında iki illik əməkhaqqına bərabər birdəfəlik pul mükafatı verərək təqaüdə göndərməyə cəhd etdi. Biz onda da şivən saldıq, gözümüzü yumub, ağzımızı geniş açaraq qışqırdıq ki, ay haray, ay həzərat, ay camaat, ay deputat, ay təhsil naziri, ay təhsil komitəsinin sədri, ay ombudsman, ay BMT, ay Azərbaycan, müəllimlər iki min, üç min lariyə şirnikib məktəbdən çıxacaqlar, kadr çatışmayacaq, məktəblərimiz bağlanacaq. Deyilənə görə, həmin period pul mükafatını götürüb məktəbdən çıxan pensioner müəllimlər sonra yenidən məktəbə işə girdilər. Hökumətin yaşlı müəllimləri məktəbdən mədəni şəkildə qovmaq cəhdi alınmadı, fiaskoya uğradı. Yəni yaşlı müəllimlər məktəbləri tutub durası oldular. İmkan vermədilər kadr çatışmazlığı olsun. İmkan vermədilər gənclər məktəblərdə müəllim işləsinlər.

İndi də ki, məktəbə işə girib müəllimlik etmək üçün gərək mütləq deputatdan-zaddan adamın, məktəb direktoru ilə isti münasibətin, ən azı hakim partiyadan tanışın və ya müəllim qohumun ola. Fərqi yoxdur, sən pedaqoqsan, kvalifikasiyalısan, yaxşı kadrsan, əgər "adamın" yoxdursa "kadr çatışmazlığı" şivəni sənə aid deyil.

Heç məktəblərin müəllimlər üçün elan etdiyi vakansiyaların da sənə aidiyyatı yoxdur. Vakansiyalar da deputatdan-zaddan tanışı olanlara, məktəb direktoru ilə isti münasibəti olanlara, məktəblərdə Sovet dövründən bəri işləyən müəllim qohumu olanlara, təhsil resurs mərkəzində tanışı-tunuşu olanlara, iki-üç məktəbdə işləyən, dərs saatı üstündə digər müəllimlərin çörəyinə şərik olan "acgöz müəllimlərə" aiddir. Fərqi yoxdur – yaşlı, ya cavan, bu "acgöz müəllimlər" imkan verməzlər ki, azərbaycandilli məktəblər "kadr çatışmazlığı" ilə üzləşsinlər. Bir vakansiyanı boş buraxmazlar. Bütün fənlərə girişərlər.

Sonra da şivən salırıq, gözümüzü yumub, ağzımızı geniş açaraq qışqırırıq ki, ay haray, ay həzərat, ay camaat, ay deputat, ay təhsil naziri, ay təhsil komitəsinin sədri, ay ombudsman, ay BMT, kadr çatışmır. Bundan sonra kadr çatışmazlığı söhbətini etmək ayıbdır, vallah ayıbdır, billah ayıbdır, camaatdan, deputatdan, təhsil nazirindən, təhsil komitəsinin sədrindən, ombudsmandan, BMT-dən ayıbdır. Adama deyərlər, kadr çatışmırsa, bəs bu qədər gənc kadr niyə işsizdir, niyə məktəblərdə işə girə bilmirlər?..

# İNTEQRASİYA MƏSƏLƏSİ



Gəlin əvvəlcə son zamanlarda tez-tez eşitdiyimiz "inteqrasiya" termininin etimologiyasına nəzər salaq. İnteqrasiya termini latınca "integer" sözündən gəlir və "bütövləşmə" deməkdir. Sosiologiyada bu termin yayğın olub, cəmiyyətlərin bir-birinə uyğunlaşması mənasını verir. Bəs cəmiyyətlər bir-birinə necə uyğunlaşa bilər? Assimilyasiya və inteqrasiyanın fərqi nədir? Miqrantların və ya etnik azlığın hakim cəmiyyətə uyğunlaşma prosesi necə baş verməlidir? Gəlin bu suallara aydınlıq gətirək.

Müasir dünya düzənində bir dövlətdə hakim cəmiyyətdən başqa mövcud olan cəmiyyətlər və ya millətlər dövlətlərin tamhüquqlu hissəsi kimi qəbul olunur. Bəs bu zaman inteqrasiya nəyə lazım olur? İnteqrasiya elə bu cəmiyyətlərin hüquqlarının qorunması deməkdir. Əgər bu cəmiyyətləri hakim cəmiyyətin bir hissəsi olaraq görmək istəyiriksə, gərək bu cəmiyyətlər arasında olan mədəni, irsi, dini fərqlilikləri qoruya bilək. Əks halda bu proses inteqrasiya deyil, tədricən assimilyasiya xarakterli olacaqdır.

İnteqrasiya gündəm məsələlərində, siyasi məsələlərdə, ticari, elmi, sosial fəaliyyətlərdə kiçik cəmiyyətin böyük cəmiyyətlə bərabər fəaliyyətini və bərabər hüququnu nəzərdə tutur. Bu, prosesin zahiri hissəsidir. Əsas olan prosesin batinini əldə tuta bilməkdir. İctimai məsələlərə başımız qarışarkən mədəni varlığımızın süqutunu görməzdən gəlsək biz inteqrasiya deyil, assimilyasiya olacağıq. Assimilyasiya və inteqrasiyanın əsas fərqi də məhz elə mədəni faktorlardır.

Bu gün Borçalı cəmiyyəti gürcü cəmiyyəti ilə bərabər hüquqlu, dost, qardaş olmaqla yanaşı öz milli kimliyini qorumalıdır ki, gerçək inteqrasiya yaransın. Dövlətin gözəlliyi onun çoxrəngliliyidir. Gürcüstandakı cəmiyyətlərin assimilyasiyasından daha çox milli kimliyini qoruyaraq gürcü cəmiyyəti ilə qaynayıb-qarışması dövlətimiz üçün daha cəlbedici və faydalıdır. Dövlət dilini öyrənmək cəmiyyətimizin ən böyük problemlərindəndir. Biz dövlətin dilini öyrənməliyik, dövlət isə bizim dilimizi qorumalıdır. Biz dövlətin dilini öyrənəcəyik deyə öz dilimizi itirsək, bu, həm bizim üçün, həm də dövlət üçün fəlakət olacaq. Qafqaz çoxmillətliliyi ilə gözəldir. Siyasi məsələlərdə gürcü cəmiyyətindən geridə qalmayaraq, ticari, elmi sahələrdə hakim cəmiyyətlə qaynayıb-qarışaraq və dilimizi, dinimizi, milli kimliyimizi qoruyaraq inteqrasiya yolunda addımlamalıyıq.

Bu gün təəssüfverici haldır ki, azərbaycandilli məktəblərin bir hissəsi bağlanıb, bir hissəsi isə bu təhlükə ilə üz-üzədir. Bu necə inteqrasiyadır? İnteqrasiya belə olmur axı. Bu, assimilyasiyanın başlanğıcıdır. Borçalı cəmiyyəti tamamilə orta təhsili öz dilində almadığı müddətcə inteqrasiyadan söhbət gedə bilməz. Borçalı cəmiyyəti hər elində, hər rayonunda məscid görmədiyi, azan səsi eşidə bilmədiyi müddətcə inteqrasiyadan söhbət gedə bilməz. Borçalı cəmiyyəti Dmanisin Armudlu yaylağında elat bayramını əvvəlki təmtəraqla qeyd edə bilmədiyi, milli soyadını qaytara bilmədiyi, yolsuzluq, susuzluq, məktəbsizlik problemləri yaşadığı müddətcə inteqrasiyadan söhbət gedə bilməz.

Cəmiyyətlərimiz arasında inteqrasiya şübhəsiz ki, mütləqdir, amma hər iki tərəf əmək sərf etməlidir. Tək dövlət dilini öyrənməklə inteqrasiya olmayacaq. Dünyəvi işlərdə gürcü cəmiyyəti ilə ayaqlaşmağı, mənəvi işlərdə isə öz varlığımızı və fərqimizi qorumalıyıq. Assimilyasiya bir millət üçün işğaldan, soyqırımdan, təbii fəlakətdən daha ağır bir müsibətdir. İnteqrasiya adı altında tarixdə kimliyini itirən bir çox milləti nümunə götürmək olar. Məsələn, anqlo-sakslar İngiltərəyə yerləşdikdə yerli ingiltərəlilər onlarla qaynayıb-qarışdıqca kimliyini itirdi, yerli misirlilər ərəblər gəldikdə kimliyini itirdi. Türkiyədəki gürcülər kimliyini itirdi. Əgər biz dilimizi bir yana atıb qarşımıza ancaq gürcü cəmiyyətinə uyğunlaşmağı məqsəd qoysaq eyni aqibəti yaşayacağıq. Ortaq yol, ortaq məxrəc hər zaman mövcuddur. Həm ana dilini qoruyub, həm dövlət dilini öyrənmək imkansız deyildir. Ana dilimdə mediam yoxdursa, ana dilimdə mətbuatım yoxdursa, ana dilimdə təhsilim yoxdursa demokratiyadan bəhs olunmamalıdır.

Əziz borçalılar, gəlin assimilyasiyadan özümüzü qoruyaq, Güney Azərbaycan türklərinin yaşadığı müsibətləri biz də yaşamayaq. Azərbaycan dövlətinin bölgələrimizdə açdığı inteqrasiya mərkəzlərində milli sahələr və ana dili üzrə olan dərslərə övladlarımızı cəlb edək, bununla yanaşı uşaqları orta məktəbdə ana dilində təhsildən məhrum etməyək.

**Cəlal YADİGARLI**
*Tbilisi Dövlət Universitetinin Tarix fakültəsinin 4-cü kurs tələbəsi*

# BİZ NƏ ÜÇÜN VARIQ?



Məşhur bir filosof var – Dekart. O deyir: "Düşünürəm, deməli varam". Bu fikir bu gün qarşıma çıxdı və məni xeyli xəyallara apardı. Nəhayət, məndə belə bir sual yarandı: Biz varıq, bəs nə üçün varıq? Niyə yarandıq? Yaradılışımızın səbəbi nədir?

Bunun üzərində bir qədər də dərin düşündüm. Sadəcə doğulmaq, işləmək, pul qazanmaq, yemək, yatmaq və kiməsə baxmaq üçünmü varıq? Yoxsa varlığımızın daha dərin bir mənası varmı?

Bu fikirlər içində ikən qarşıma başqa bir həqiqət çıxdı. İnsanların çox vaxt ölülərə oxuduğu, amma əslində dirilərə göndərilmiş olan "Quran"da bir fikir var. Orada deyilir: "Mən cinləri və insanları yalnız Məni tanısınlar və Mənə ibadət etsinlər deyə yaratdım".

Sonra bu kitabı araşdırdım və anladım ki, kainatı və bizi yaradan bizə necə doğru yaşamağı öyrətmək üçün bu kitabı göndərib. Nəticədə belə bir qənaətə gəldim: Bizim yaradılış məqsədimiz – Yaradanı tanımaq, Onu sevmək və Onun istədiyi şəkildə yaşamaqdır.

"Quran"da keçən "qulluq etmək üçün yaratdım" ifadəsi üzərində də düşündüm. Öz-özümə sual verdim: Görəsən, Yaradan bizi yalnız qul olmaq üçünmü yaratdı? Araşdıranda anladım ki, "qul olmaq" – heç bir haqqı olmayan, izzəti tapdalanan kölə olmaq deyil, Yaradana qul olmaq – Onun əmrlərinə və qanunlarına görə yaşamaq, Onun qoyduğu hikmətli qaydaları həyatımıza tətbiq etməkdir.

Sonra "Quran"ın əmrlərinə və qadağalarına nəzər saldım və gördüm ki, onlar əslində insanın şərəfini, namusunu, ləyaqətini qoruyan və insanı həqiqi mənada "insan kimi" yaşamağa çağıran qanunlardır.

Daha sonra başqa bir məsələni düşündüm: İnsanlara insan kimi yaşamağı öyrədən Yaradanı buraxıb pula, vəzifəyə və ya şöhrətə qul olmaq insana nə gətirir? Anladım ki, insan bunlara qul olduqda – özündən alçağa "bəy", özündən savadsıza "müəllim" deməyə məcbur qalır; namussuzların qarşısında öz izzətini, şərəfini itirir.

Ən sonda dərk etdim ki, bütün bu problemlərin səbəbi insanın öz yaradılış məqsədini və Yaradanını tanımamasıdır.

Təbii ki, bunlar mənim üzərində düşündüyüm təfəkkür və çatdığım nəticədir. Bəlkə sizlər də varlığınız üzərində düşünüb başqa nəticələrə gələ bilərsiniz. Ancaq doğru nəticəyə yalnız qərəzlərdən uzaq olaraq, səmimi təfəkkür etdikdə çatmaq mümkündür.

**Tural QASIMOV**
*İlahiyyatçı*

# SƏSSİZ GƏLƏN TƏHLÜKƏ



Hacı BƏKİROĞLU
haci-bekiroglu@hotmail.com

Cəmiyyətin sabahı olan gənclər bu gün görünməz, lakin dağıdıcı bir təhlükə ilə üz-üzədir. Bu təhlükə nə silah səsi ilə gəlir, nə də açıq müharibə ilə. O, səssizcə, yavaş-yavaş gənclərin ruhunu, düşüncəsini və gələcəyini zəhərləyir. Əvvəlcə bir maraq, sonra mühitin təsiri, daha sonra isə qaçılmaz asılılıq... Və sonda bir ailənin göz nuru, bir cəmiyyətin ümidi vaxtsız solur.

Hər gün eşitdiyimiz acı xəbərlər içimizi parçalayır: vaxtsız itirilən gənc ömürlər, göz yaşı içində qalan ailələr... Son illərdə bu səbəbdən ölüm hallarının artması artıq hamımız üçün bir həyəcan siqnalına çevrilib.

Bu təhlükə təkcə tibbi və ya hüquqi problem deyil. Bu, həm də böyük bir mənəvi sınaqdır. Qurani-Kərimdə buyurulur: "Özünüzü öldürməyin. Şübhəsiz ki, Allah sizə qarşı mərhəmətlidir" (Nisa, 29).

Həyat bizə Allahın verdiyi əmanətdir. Bu əmanəti zərərli vərdişlərlə puç etmək sadəcə özünə zülm deyil, ailəsinə və cəmiyyətə də xəyanətdir. Peyğəmbərimiz (s.ə.s.) buyurur: "Zərər vermək və zərərə zərərlə qarşılıq vermək yoxdur" (İbn Macə). Bu hədis göstərir ki, insan nəinki başqasına, özünə də zərər verə bilməz. Amma gənclərin qarşısına çıxan bu səssiz təhlükə həm özlərinə, həm də bütün cəmiyyətə ağır yaralar vurur.

Unutmayaq ki, gənclik insan ömrünün ən qiymətli dövrüdür. Güc, enerji, yaradıcılıq və arzularla dolu bir çağdır. Bu güc elmə, ədəbə, dinə və vətən sevgisinə yönəldikdə bir gəncdən həm ailəsinə, həm də millətinə fayda gəlir. Amma bu güc yanlış yollarda tükəndikdə həm gənc məhv olur, həm də cəmiyyət gələcəyindən məhrum qalır.

Bəli, gənclərin bu təhlükəyə düşməsində yalnız onların seçimi yox, həm də mühitin təsiri böyükdür. Ailədə sevgi və diqqət əskikliyi, məktəbdə laqeyd yanaşma, cəmiyyətdə mənəvi boşluq – bütün bunlar gəncin içində dərin bir boşluq yaradır. Təəssüf ki, bu boşluğu çoxları yanlış yollarda doldurmağa çalışır.

Ona görə də bizlər – valideynlər, müəllimlər, din xadimləri və ümumilikdə cəmiyyət gənclərimizə sahib çıxmalıyıq. Onları qınamaqla deyil, başa düşməklə; uzaqlaşdırmaqla deyil, qucaqlamaqla; danlamaqla deyil, yol göstərməklə xilas edə bilərik.

Qurani-Kərimdə buyurulur: "Kim bir canı dirildərsə (xilas edərsə) bütün insanları diriltmiş kimi olar" (Maidə, 32). Bu ayə bizə göstərir ki, bir gənci xilas etmək sadəcə bir fərdin həyatını qurtarmaq deyil. Bu, bir ailəni, bir məktəbi, bir nəsli yaşatmaq deməkdir. Bəlkə də xilas etdiyimiz həmin gənc sabah bir alim, bir müəllim, bir həkim, bir ata və ya bir ana olacaq.

Odur ki, gəlin gənclərimizi bu dağıdıcı vərdişlərin pəncəsindən qurtaraq. Onları elmə və təhsilə yönəldək. Qabiliyyəti təhsilə uyğun olmayanları isə peşəyə sahib edək ki, həm özlərinə faydalı olsunlar, həm də cəmiyyətin yükünü yüngülləşdirsinlər. Çünki gənclər bizim gələcəyimizdir. Onları qorumaq sadəcə borc deyil, həm də şərəfdir.

# MƏKTƏBLƏRDƏ DƏRS SAATINI NİYƏ DİREKTOR BÖLÜR? DƏRS SAATI BÖHRANI VƏ ÇIXIŞ YOLU




“Məktəblərdə dərs saatını məktəb direktorunun bölməsi düzgün deyil, müvafiq komitə yaradılmalıdır və rəhbərliyin nümayəndələrindən biri, müəllimlər, valideynlər həmin komitəyə qoşulmalıdırlar” – EDU.ARİS.GE ilə söhbəti zamanı təhsil üzrə məsləhətçi, ictimai məktəbdə tarix və vətəndaş təhsili fənləri üzrə müəllim Şalva Mindadze bildirib.

Mütəxəssis qeyd edib ki, kökündən dəyişdiriləcək qanun yaradılmalıdır, məktəb həmin qanuna əsaslanmalıdır, əgər belə qanun yoxdursa mütləq yaradılmalıdır, daxili nizamnamədə qeyd edilməlidir, məktəbin buna tam hüququ çatır.

“Direktor tərəfindən hər hansı birmənalı müdaxilə diskriminasiya olaraq qəbul olunacaq. Ancaq təcrübədə elə məktəblər olub ki, daxili nizamnamə yazılıb, əgər problem həll olunmursa, dərs saatı bölünmürsə, o zaman direktor bu prosesə müdaxilə edir. Ancaq bu özbaşına qəbul edilmiş qanundur və ümumtəhsil qanununda, direktorlar məcəlləsində belə qayda yoxdur.

Qanunda ümumiyyətlə direktora dərs bölmək hüququ verilmir – nə müsbət (təsdiqləndiyi halda) nə də mənfi.

Ümumtəhsil haqqında qanun (maddə 1-2, 24-26) ümumi idarəetmə prinsiplərini, avtorizasiya, sistemli tənzimləmələri əhatə edir. Ancaq direktora əməkhaqqı vermək, dərs saatını bölmək kimi xüsusi səlahiyyət vermir. Direktorun əmək münasibətləri qaydası, yaxud nizam-intizam kimi səlahiyyətlərinin bir hissəsi şəffafdır (məsələn, nizam-intizam ölçüləri götürmək), amma dərs saatının bölünməsi ilə bağlı qanunda normativ qeyd yoxdur.

Məktəblərdə direktorun dərs saatı bölmək təcrübəsi əksər hallarda əsassız, statusa əsaslanan və auditoriyaya xəbərdarlıq edilmədən olur. Pedaqoqların bir qisminin tövsiyəsi də belədir ki, saatların bölünməsi nizamnamə ilə olmalıdır. Məsələn, direktorun şəxsi baxışlarına əsaslanaraq deyil, katedra səviyyəsində, yaxud Qəyyumlar Şurasının iştirakı ilə olmalıdır.

Qanun direktora dərs saatının bölünməsini həyata keçirmək üçün hüquqi və əsaslandırılmış səlahiyyət vermir. Müvafiq olaraq, təcrübədə bu səlahiyyətin olması yalnız milli normativ aktlarda fəaliyyətlə bağlıdır. Əgər müəllimlər ədalətli, şəffaf və qərar verilmiş saatların bölünməsini istəyirlərsə, həmin məktəbin daxili idarəetmə nizamnamələrinin, yaxud Qəyyumlar Şurasının/Pedaqoji Şuranın müvafiq qərarlarının qoşulmasının əsası qoyulmalıdır”, – deyə Şalva Mindadze bildirib.

Şalva Mindadze dərs saatının bölünməsi ilə əlaqədar Gürcüstan məktəblərindəki problemləri bəndlərə bölür və onların həlli yollarını başqa ölkələrin misalında təqdim edir:

***Gürcüstanda dərs saatının bölünməsi böhranı və Avropa təcrübəsi fonunda çıxış yolu:***

**Gürcüstanda problem:**

Bu gün Gürcüstan məktəblərində dərs saatının bölünməsi ən ağrılı mövzulardan biri kimi qalır.

• Minimum və maksimum yük haqqında yazılmış norma yoxdur;

• Qərarlar çox vaxt pərdə arxasında verilir;

• Yeni addım atan müəllimlə müqayisədə təcrübəli pedaqoqa üstünlük verilir;

• Əlavə əmək (inklüziv qrup, çoxparalellik) qiymətləndirilmir;

• Əsas meyar bəzən peşəkarlıq deyil, “kim kimlə yaxşıdır” məsələsi olur.

Bu, Gürcüstanda dərs saatının bölünməsinin tez-tez mübahisə, rəqabət və gərginlik mənbəyinə çevrilməsinə səbəb olur.

***Avropada dərs saatı necə bölünür?***

**Böyük Britaniya:**

İldə 1265 dərs saatı (195 gün).

Hazırlıq və qiymətləndirmə 10 % “PPA time” üçün toxunulmazdır.

Məktəbdə saatları bölən və müəllimlərə şərh vermək hüququ verən saat bölgüsü komitəsi var.

**Fransa:**

Qanun səviyyəsində: həftədə 18 saat (sertifikatlı), 15 saat (“agrégé” – başlanğıc/ən azı 3 ilə qədər).

Norma birdir, buna görə də saatlara görə mübahisə yoxdur.

**Almaniya:**

Həftədə orta hesabla 25-27 dərs.

Əlavə iş (“Mehrarbeit”) ödənir.

Bəzi bölgələrdə bal cədvəli qüvvədədir – çətin fənlər (fizika, riyaziyyat) ikiqat bal və saat hesab edilir.

**Finlandiya:**

Həftədə 16-24 saat, qalan vaxt – hazırlıq və əməkdaşlıq üçün. Əlavə saatlar ümumi razılıqla, açıq meyarlarla bölünür.

**Estoniya:**

Həftədə 35 saat, buradan 18-24 saat tədris saatıdır.

Qalan vaxt müqavilə əsasında müəyyən edilir: hazırlıq, qiymətləndirmə, digər öhdəliklər.

**Niderland:**

İldə 1659 saat, maksimum 930 saat dərs tədris saatıdır.

Məktəb “müəllimin iş planı”nı hazırlayır və bunu direktor, həmkarlar ittifaqı təsdiq edir.

**İspaniya:**

İlkin mərhələdə: həftədə 25 dərs.

Orta: 18-21 dərs.

Saatların bölünməsi sıra prinsipi ilə olur: Tam qrafiklə işləyənlər – ilk sırada.

***Təcrübə bizə nə öyrədir?***

• Hər yerdə minimum və maksimum norma mövcuddur;

• Hazırlıq üçün ayrılmış vaxt nəzərə alınır;

• Qərar yazılı sənədlərə və meyarlara əsaslanır;

• Əlavə iş yükü ya ödənilir, ya da kompensasiya olunur;

• Müəllim prosesə qoşulur.

***Gürcüstanda nə edilməlidir?***

1. Normaların müəyyən edilməsi:

Qanun səviyyəsində minimum və maksimum saatlar yazılmalıdır (məs: 10-15 tam dərs üçün).

2. Baza üzrə bölgü:

Bütün müəllimlər bərabər başlanğıc dərs yükü götürməlidir.

3. Artıq dərs saatının bölüşdürülmə meyarları:

Hər bir müəllimə baza dərs yükü təyin olunur (məsələn, 10 saat); artıq qalan saatlar (“qalıq”) bal sistemi əsasında bölüşdürülməlidir.

***10+ dərs saatının meyarları (əlavə):***

1. İmtahan sinfi (+2 saat):

Milli imtahanlara hazırlıq məqsədilə X–XI–XII siniflərdə dərs deyən müəllim.

Bu əlavə saatlar müəllimin yüksək məsuliyyət və stress şəraitində gördüyü işin kompensasiyası məqsədilə verilir.

2. İnklüziv sinif (+1 saat):

Əgər müəllimin sinfində xüsusi təhsilə ehtiyacı olan şagird varsa.

Bu daha çox zaman və resurs tələb edir, buna görə əlavə saat ədalətli hesab olunur.

3. Çətin dərs cədvəli (+1 saat):

Dərsin uyğun olmayan vaxtda keçirilməsi (məsələn, axşam saatlarında və ya günorta vaxtı fasiləli qrafiklə).

Əlavə iş şərtlərinin çətinliyinə görə kompensasiyadır.

4. Tanınmış pedaqoq (+1 saat):

Daxili sorğular və qiymətləndirmələr əsasında seçilən müəllim – həmkarlar və ya şagirdlər tərəfindən peşəkarlığı ilə fərqlənən şəxs.

Əlavə saat – motivasiya və peşəkar nüfuzun tanınmasıdır.

5. Məktəb idarəçiliyi və PR fəaliyyətinə qoşulmuş müəllim (+1 saat):

Məktəbin idarəetmə işlərində, tədbirlərində, kommunikasiya və layihələrində aktiv iştirak edən müəllim.

Əlavə saat həmin əlavə məsuliyyətin tanınmasıdır.

***10− dərs saatının meyarları (azalma):***

1. Ötən il yüksək dərs yükü olan müəllim (–1 saat):

Əgər müəllimin ötən ildə çox ağır dərs yükü olubsa və ya çətin siniflər və ya bir neçə paralel siniflə məşğul olubsa yeni tədris ili üçün dərs saatı azaldılır.

Bu rotasiya və ədalətli bölgü məqsədilə həyata keçirilir.

**Nəticə:**

1. Bu modelin məqsədi qalıq saatların (məsələn, 3-5 saat) obyektiv və şəffaf qaydada bölünməsidir. Hamının əsas 10/15 saatı var (Dərs cədvəlinin saatların bərabər bölünməsinə imkan verdiyi həddə qədər).

2. Qalanları ballara əsasən bölünür: kimin daha çox məsuliyyəti, daha çox çətinliyi və iştirakı varsa, o, əlavə saat götürür.

3. Kimin ötən il qrafiki daha yüklü olubsa saatı azaldılır.

4. Rotasiya – prestijli və ya çətin siniflər hər 2-3 ildə bir dəfə dəyişdirilir.

5. Şəffaf proses – bölünmədən əvvəlki versiya müəllimlər otağında yayılmalıdır, müəllimin şərh bildirmək hüququ olmalıdır.

6. Əlavə yük üçün ödəmə – daha çox paralel sinif, çətin ya ikinci növbənin qrafiki müəllimin əməkhaqqına, yaxud başqa güzəştinə təsir göstərməlidir.

7. Saat bölgüsü edən komitə – hər məktəbdə xüsusi komitə yaradılmalıdır. Komitədə rəhbərlik, katedra, Müəllimlər Şurasının nümayəndələri olacaq. Komitə işləyəcək və daxili nizam-intizamı təsdiq edəcək. Nizam-intizam qaydasında obyektiv meyarlar (veteranlıq, inklüziv təcrübə, imtahan sinifləri və s.) yazılacaq. Artıq meyarlar əsasında saatların bölgüsü olmayacaq, “kim kimlə dostluq edir” qaydası ilə deyil, obyektiv qayda ilə.

8. Mədəniyyətin dəyişdirilməsi – prinsip tətbiq olunmalıdır: “Daha çox saat ≠ daha çox prestij”.

Əsas kəmiyyət deyil, keyfiyyətdir.

9. Həmkarlar İttifaqının qoşulması – Müəllimlərin Həmkarlar İttifaqı qaydalara riayət etməyin və ədalətli qərar qəbul etməyin zəmanəti olmalıdır (belə hal olarsa).

10. Məktəbdə qayda tətbiq olunmalıdır, ilin ən yaxşı 5 müəllimi – meyarlar və jüri olmalıdır. Məktəb ictimaiyyəti də qoşulur. 5 müəllimin hamısına (+3/+4 saat) verilir.

**Yekun nəticə:**

Gürcüstan məktəblərində dərs saatının bölgüsü yalnız texniki deyil, həm də dərin mədəni problemdir.

**Çıxış yolu:**

• Qanunla müəyyən edilmiş normalar;

• Şəffaf proses;

• Rotasiya və kompensasiya;

• Saat bölgüsü üzrə komitənin yaradılması və daxili nizam-intizama əsasən meyarların yazılması;

• Müəllimlərin iştirakı.

Belə sistemlə məktəbdaxili mübahisələr əvəzinə ədalət və müəllimlərin vaxtını, enerjisini şagirdlərin təhsilinə xərcləməsi yaranacaq.

***Mənbə: edu.aris.ge***
***Gürcü dilindən tərcümə etdi Aynurə ƏLİYEVA***

# YENİDƏN BAŞLAMAQ ÜÇÜN LAZIMSIZ ADAMLARI HƏYATINIZDAN SİLİN



Uşaqlıqda, gənclikdə bunu hiss etmirdik, elə ki ömür yarını keçir üstümüzə bir ağırlıq gəlir. Yoruluruq, əsəbi oluruq, müxtəlif xəstəlik əlamətləri üzə çıxır. Adını da qocalırıq qoyuruq. Əsla! İndi mən onun psixologiyasını açım, bəlkə də mənimlə razılaşacaqsınız.

Uşaqlıqda bizim bütün qayğılarımızı çəkirdilər. Kindən, nifrətdən xəbərsiz yaşayırdıq. Ona görə də uşaqlığımızı müqəddəsləşdiririk. Hamımız elə hesab edirik ki, çox xoşbəxt idik. Gənclikdə də hər kəsin başı özünü tapdığı mühitə qarışır. Kimi təhsilində, kimi elmində, bəziləri biznes qurur. Hələ zamanını sevgiyə xərcləyənlər də var. Beləcə otuz yaşa qədər ömür su kimi gedir. Hiss etmirsən.

Elə ki qayğı çəkəcək zaman çatır, burada baxış bucağı dəyişir. Artıq ailə, onun qayğıları, ətrafın ögey münasibəti, müxtəlif nəzərlər, fərqli rəylər əsəbini qıcıqlandırır. Halbuki belə adamlar da, belə münasibət də əvvəllər vardı, uşaqlığında da, gəncliyində də. Sadəcə sən onlara fikir vermirdin deyə elə beşiyində məhv olurdu. Bax, bizim ətrafımız dolu viruslar, bakteriyalardır. İmmunitetimiz – müqavimətimiz güclü olduğu üçün onlar bizə yaxın gələ bilmirlər. Məğlub olurlar. Elə ki müqavimət zəiflədi onlar fəaliyyətə başlayırlar. Biz elə adamlara fikir verməklə onları fəallaşdırırıq.

Nənəmin anası loğman olmuşdu. Yaxşı türkəçarələr bilərdi. Nənəm hara gedib-gəlsə mütləq başına duz hərləyib suya atardı. Biz ona həmişə gülərdik, nənəyə yenə kimin gözü dəydi deyə... Sonralar bu duz məsələsini araşdırarkən maraqlı məlumatlara rast gəldim. Sən demə ətrafımızda sanki atmosferimiz olan təbəqələr varmış, buna aura deyirlərmiş. O aura bizi qoruyarmış. Ətrafda olan sənə qarşı pis fikirli adamların yolladığı mənfi enerji o auranı sanki güllələbarana tuturlar. Sənin gücün onu qaytara bilir, əgər fikir verməsən, necə ki, gənclikdə, uşaqlıqda etinasız idin. Yox, əgər reaksiya verirsənsə, el diliylə desək, onlara qoşulsan bu, sənin psixiloji müqavimətini zəiflədir, nəticədə aura o mənfi enerjini qaytara bilmir, üstünə bir ağırlıq çökür, baş ağrıları, əzginlik və s. əmələ gəlir. Duzun tərkibindəki natrium ionu auranı bərkidirmiş. Saat əqrəbi istiqamətində fırladarkən ion mübadilə edirmiş. Sonra mənfi enerji ocaqla və axar su ilə təmizlənərmiş. Bilmirəm bu araşdırma nə qədər realdır, amma bir bioloq kimi dərk edərək qəbul edəcəyim nəzəriyyədir.

Qeybət, söz-söhbət yəqin ki, həyat yaranandan olub. Elə yəqin Tanrı da şeytan tipli insanları aramıza yerləşdirib ki, seçimi özümüz edək. Demək istəyib ki, ey insan övladı, mən sənə şüur vermişəmsə, nə verməmişəm. Yox, şüur verməmişəmsə, nə vermişəm?!

İndi gəlin şüurlu bəndə kimi uşaqlığımızdakı kimi məsum, gəncliyimizdəki kimi qayğısız baxaq həyata. Gördünüzmü həyat necə gözəl görünür.

Hamımıza tanış bir nümünə deyim. Telefonumuza lazımsız oyunlar, proqramlar yükləyək. Arxa planı da silməyək. Nə baş verəcək? Əlbəttə, telefon datası dolacaq, açıq qalan proqramlar telefonun enerjisini qurtaracaq. Bir də görəcəksən elə yerdə enerji bitdi ki... Bax, beləcə ətrafımızdakı lazımsız adamlar, qeybət həyatımızın yaşam enerjisini tükədir.

İnanın mənə, həyatda yalnız doğma adamlardan keçmək olmur. Qalan hər kəs əgər sənə həyatda xeyirli yolunda mane olan insanlar cərgəsindədirsə o adamları "udalit" edin getsin. O haqda düşünmək belə qəbahətdir.

Ömür yaşayanda çox qısadır. Arzulara sığmayacaq qədər qısadır. Onu mənasız müzakirələrə sərf etməyə dəyməz. Bu əsəb, stress birbaşa sağlığa zərbədir, 100 yox, 1000 faizlə mütləq şəkildə zərbə sonu xəstəlikdir. Orqanizmin yaranması başlanğıc və son nöqtədən ibarətdir. O son qurtuluş hər kəsdə bir orqanda bitir. Bu son nöqtə bizim zəif nöqtəmizdir. Kələfi pozmaq üçün ip ucudur. Soyuq da dəysə, qorxsaq da, stress də keçirsək məhz xəstəlik həmin nöqtədən başlayacaq.

İndi biz özümüzü qorumaq üçün, həyata açıq gözlə baxmaq üçün, mübarizlik naminə, doğmalarımızın əlindən daha bərk tutmaq üçün neyləməliyik? Əlbəttə, necə ki telefondan artıq proqramları silirik, qruplardan söhbətləri silirik, sonda da telefona yenidən başla əmri veririk. Bax, beləcə həyatımızı yenidən başlayaq. Uşaqlıqdakı kimi məsum olmayaq, bir xeyli gözüaçıq, bir xeyli fərasətli, bir xeyli də ağıllı olaq.

Bircə düymə lazımdır. Ürəyinizdə təpər tapın. Həyatınızda yalnız sizə xoş olan adamları yaddaşınızda saxlayın. Sizi qıran, əsəbiləşdirən, mənəvi rahatlığınıza mane olan insanları "udalit" edin. Sonra zibil qutusunu da silin ki, sizə naxoş xatırlanası heç nə qalmasın.

Vurdunuzmu düyməni? Afərin! Nə gözəl! Daha heç zaman onları düşünməyəcəksiniz. Aha, təzə səhifə açıldı: XOŞ GƏLDİNİZ! Özünüzü dünyaya yeni gəlmiş kimi görün və bundan sonrakı həyatınızı gülümsəmək üçün, sevinmək üçün yaşayın.

**Esmira ƏLƏKBƏRLİ**
*Marneuli rayonu Qaçağan 2 saylı ictimai məktəbin kimya-biologiya müəllimi*

# TƏTİL



İnsan niyə tətilə gedir? Niyə biz tətilə getməliyik? Yay ayları gələndə ən aktual suallardan biri də budur: Tətilə hara gedəcəksən?

Əslində insanın tətilə getməsi vacibdir, insan özünə zaman ayırmalıdır. Çünki hər kəs həm dincəlməli, həm də beyninə bir qədər "format" verməlidir. Tətil insana təkcə istirahət yox, həm də yeni baxış bucağı qazandırır.

Məsələn, mən evdən 2-3 günlüyə harasa getsəm, dönüşdə işimlə bağlı yeni ideyalar, yeni fikirlər ağlıma gəlir. Çünki başqa bir bölgəyə gedəndə yeni insanlarla qarşılaşırsan, fərqli mühit görürsən. İstər-istəməz oradakı gedişatı izlədikcə beynində yeni-yeni fikirlər formalaşmağa başlayır.

Məktəb vaxtlarında atam bizi tətilə sadəcə qohumların yanına apardı. Dənizə gedim, Alanyaya, İstanbula uçum – belə bir lüksumuz yox idi. Ümumiyyətlə, o dövrdə insanların çoxu ya qohum evinə gedərdi, ya da yay boyu çöllərdə əkin-biçinlə məşğul olardı.

Amma günümüzdə "tətil" anlayışı tamam fərqli məna kəsb edir. Biz artıq tətili öz istirahətimiz üçün yox, sanki başqalarının görməsi üçün edirik. Bəli, sən tətilə gedə bilərsən, getdiyin yerlərin şəklini çəkib yaxınlarınla, dostlarınla, qohumlarınla, qonşularınla paylaşa bilərsən, bunda problem yoxdur. Amma bunun bir "amması" var. Biz çox vaxt tətildən həzz almaq üçün yox, başqalarına göstərmək üçün gedirik.

Qaldığın oteldən tutmuş yediyin zeytunadək, hətta istifadə etdiyin tualetə qədər hər şeyi çəkib paylaşmaq, bu, artıq sadəcə tətil deyil, görməmişlikdir.

Türklərin sözü olmasın, çoxumuz "sosyetələşmişik". O gedibsə, mən də getməliyəm, özü də ən bahalı, ən dəbdəbəli yerdə dincəlməliyəm. Vallah, gedin, dincəlin, paxıllıq edənin gözü çıxsın. Amma sırf "filankəs partlasın, cırılsın" deyə şəkil paylaşmaq, bu, artıq sadəcə cahilliyin əlamətidir.

Keçən il Tofiq əmi ilə Jalə xala istirahətə getmişdilər. Təsadüfən mən də onlarla tətildə rastlaşdım. Birdən Jalə xala başladı:

"– Ay bala, məni belə çək, paylaşım, qoy partlasınlar".

Dedim: Ay xala kim partlayacaq ki?

O da arxayın-arxayın:

"– Qonşu Rəna, xalam qızı Səbinə, baxsınlar, görsünlər biz də tətildəyik".

Elə bil tətilin məqsədi dincəlmək deyil, kimin kimdən əvvəl partlamasıdır.

Hələ borc alıb tətilə gedənləri demirəm. Bankdan kredit götürüb gedirlər. Sonra da il boyu cəmi dörd selfi şəklin pulunu altı ay ödəyirlər. Pulun yoxdur getmə, otur evdə. Axı məqsəd sadəcə dincəlmək deyil, qonşunun gəlini gedib şəkil paylaşıb, gərək bu da gedə, ordan şəkil paylaşa.

Şəkil demiş, hər gün, hər saniyə evini, evindəki əşyalarını, yataq otağını, yeni aldığı qabları, çilçırağını, televizorunu, təzə aldığı paltarını, hətta tualet və hamamını paylaşan insanlar var. Bu, narsissizmdir. Yəni insan özünü və həyatını həddindən artıq nümayiş etdirməklə daxildəki boşluğu doldurmağa çalışır.

Nə isə, kim hara gedir-getsin, harada dincəlir-dincəlsin. Mən bu yayı istidə Rustavi-Qardabani yolunda söyə-söyə gedib-gəlmişəm. Söyməyimin səbəbi də odur ki, artıq iki ilə yaxındır, bu yollar düzəldilib qurtarmadı. Qonşum üç aydır ki, Almaniyadadır, hər dəfə zəng vuranda birinci sualı bu olur: "Yollar düzəldi?" Deyirəm, ay bala, otur oradaca, kef elə, mən indi evə güc-bəla ilə gəlib dincəlmişəm, sən də təzədən yolu yadıma salırsan. İndi də məcburam oturum, sənə söyüm!

**Binəli İSLAMOĞLU**
*"BEEZ" Uşaq Teatrının bədii rəhbəri*

# BALA MUĞANLININ BÖYÜK OĞLU



***“Mən doqquz uşaqlı ailənin yeddinci övladıyam, beş bacı, dörd qardaşıq. Atam Məhəmməd Rüstəmoğlu məşhur Mövləvilər nəslindən idi, yazı-pozu bilməsə də, gözəl əkinçi-biçinçi idi. Anam Məsmə xanım Alı qızı Qars-Ərzurum-Sarıqamış, bir yanı Başkeçid ellərində tanınmış Mikayıllılardan olmuşdu. Sərrast atıcı olduğu üçün “Kor Alı” təxəllüsü ilə tanınan “qıyıqgöz” ana babam XX əsrin əvvəllərində türk-rus orduları arasında dilmanc işləmişdi. Mənim ilk poeziya müəllimim anam olmuşdu. Onun yanıqlı bayatıları indi də ruhumdadır”.***

*Özü və nəsli haqqında dediklərindən*
*(Vaqif Yisifliyə istinadən).*

***

Bala Muğanlı kəndi, indi Farisi kəndi Bolnisi rayonuna aiddir. 20 kilometr ondan aralıdır. Amma dədə-baba gediş-gəlişi, əlaqəsi, həftə bazarı Sarvanla, indiki Marneuli ilə olub. Çünki rayonun yaxınlığında, qənşərində yerləşir. Vaxt var idi, arabalar dolardı, becərilən məhsul Sarvan bazarına, Tiflis bazarına aparılardı. Bu əlaqələr, bu gediş-gəliş müstəvisində Nayvəlilər nəslindən Məhəmməd kişinin xalası (o Məhəmməd kişinin ki, oğulları Vəkil, Cümşüd, Abbas, onun oğlu Asif Azərbaycanda elm aləminə yaxşı tanışdır, Məhəmməd kişi sonralar müəyyən səbəblərə görə Hacıyev soyadını götürür) Hüsnü Bala Muğanlı kəndinə ərə gedib, burada Rüstəm kişi ilə ailə qurub. Rüstəm kişi və Hüsnünün Məhəmməd, Hümmət, Fatmanisə, Səlmi, Mələk, Ayna, Salatın, Səkinə adında övladları olub. Hüsnünün və Rüstəm kişinin böyük oğlu Məhəmmədin övladları tanınmış alim, şair və tərcüməçilər Vilayət Rüstəmzadə və İbadət Rüstəmzadədir (İbadət Mövləli).

1869-cu ildə həyata keçirilmiş kameral (ailə və ya tüstü /ev sayına görə) siyahıyaalmaya əsasən Tiflis quberniyasının Tiflis qəzasının Bala Muğanlı kəndində Azərbaycan tatarlarından ibarət 27 ailə yaşayırdı. Bəlkə elə bu balacalıq, balalıq buradan gəlir. Nə isə, Sarvan qızı Hüsnünün gəlişi ilk növbədə ailəni, sonra eli, obanı şənləndirir. Bu balaca, bala kənd də qız verərək kiçik, böyük elləri şənləndirir. Şən olsun bizim ellərimiz.

Onu da deyim ki, Borçalıda bir neçə Muğanlı kəndi var, eləcə də Azərbaycanda var. Bu kəndin adı elə mən də deyərdim ki, Muğana, Muğan toponiminə bağlıdır. Qaldı onun tarixi qatlarına, burada onu çözməyi məqsədyönlü hesab etmirəm. Nə isə, belə fikirləşirəm ki, Muğanlı çox olduğundan, bu kənd də balaca olduğundan onun da adını bala, yəni balaca Muğanlı qoyurlar. Elə ilk ərəfələrdə kəndin 27 ailəsi olub. Bu ailələr arasında Vilayət Rüstəmzadənin babası Rüstəm kişinin də babaları olub. O Rüstəm kişinin ki, babasının adını öz soyadına yaraşdıran Vilayət Rüstəmzadə indi sözün-söhbətin duzudur, yavanlığıdır. Sözün-söhbətin səmtidir. Ondan danışacağam. Onu anacağam. Çünki avqustun 12-də onun doğum günüdür.

Yaşasaydı bu gün 84 yaşı olardı. Gələrdi Borçalıya, bir şeirində vəsf etdiyi Borçalı bağlarını gəzərdi. Bağların içinə qərq olunan Bala Muğanlıda, Rüstəm kişinin yurdunda bardaş qurub oturardı. Olub keçənlərdən, poeziyadan, tərcümədən söhbət açardı. Tərcümə dedim, Yakob Polonskinin ilk dəfə Tiflisdə “Kafqaz” qəzetində dərc olunan şeirinin tərcüməsi yada düşdü. Necə də gözəl edib, gözəl düzüb-qoşub. Polonskinin ruhunun gözəl tərcümanı olub...

*Səttar! Səttar! Nə yaman qəhrlidir ah-vayın,*
*O boğuq fəryadında göy kişnər, bulud ağlar!*
*Kamanın iniltisi, qavalın qəm harayı*
*Sinəmə dağlar çəkər, qəlbimdə yuva bağlar.*
*Oxuduğum sözləri anlaya bilməyirəm –*
*Başqa ruhda köklənib əzəldən könül sazım.*
*Səninsə öz komandan hey ucalıb avazın.*
*Gecədir... Tiflis susur, mən səni dinləyirəm –*
*Sanki şərqli qardaşım xəstə qəlbimi didir,*
*Sənin dilinlə məni danlayır, tənbeh edir...*
*Bilirəm nə deyirsən, nə danışır ilhamın,*
*Bəlkə qana qan deyə coşursan, çağlayırsan.*
*Bəlkə mədh eləyirsən qılıncını İslamın –*
*Önündə zaman-zaman qullar əsən zamanlar...*
*Sözsüz mənə aydındır bu ahlar, bu amanlar!*

Olmadı, neçə illərdir ki, onun ad günü onsuz qeyd edilir. Bu düşüncə ilə yol gedərək işimi yüngülləşdirmək üçün onun qısa avtobioqrafiyasını verirəm. İnternet doludur.

...1937-ci il avqustun 12-də Gürcüstanın Borçalı rayonunun Bala Muğanlı kəndində anadan olmuşdu. Marneuli Dövlət Pedaqoji Məktəbini, Moskvada M.Qorki adına Ədəbiyyat İnstitutunu (1964) bitirmişdi.

Əmək fəaliyyətinə “Azərnəşr”də tərcüməçi-redaktor kimi başlamışdı. Sonra M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin aspirantı olmuşdu (1968-71). Bir müddət Azərbaycan Mədəniyyət Nazirliyinin aparatında çalışmış, M.F.Axundov adına Pedaqoji Rus dili və Ədəbiyyatı İnstitutunda, Azərbaycan Dövlət Universitetində SSRİ xalqları ədəbiyyatını tədris etmişdi. “Azərbaycan” jurnalında tənqid və ədəbiyyatşünaslıq şöbəsinin, “Azərnəşr”də, “Yazıçı” nəşriyyatında bədii tərcümə redaksiyasının müdiri, Azərbaycanın Xarici Ölkələrlə Dostluq və Mədəni Əlaqələr Cəmiyyətinin orqanı (yeddi dildə nəşr edilən) “Sovet Azərbaycanı” qəzetinin baş redaktoru, “Azərnəşr”də böyük redaktor, Azərbaycan Tərcümə və Mədəni Əlaqələr Mərkəzinin məsul katibi, “Türk dünyası” jurnalının baş redaktorunun birinci müavini, “Amal” qəzetinin baş redaktorunun birinci müavini vəzifələrində işləmişdi.

Bu qısa tərcümeyi-halın həcmində nə qədər xatirə, nə qədər təəssürat, nələr, nələr yaşayır.

Artıq xeyli vaxtdır ki, Vilayət aramızda yoxdur. Onun yoxluğunu xatirələr yaşadır. Hər avqustun 12-i gələndə bu xatirələr qanadlanır, dil açır.

Görkəmli yazıçı-jurnalist Nahid Hacıyevin onun barəsində yazdığı “Ürəyimdəsən” adlı xatirədən bir parça:

“– Qardaş, bütün həyatın gəlib keçdi xəyalımdan...

– Məncə, kitablarının, eləcə də rus, özbək və gürcü dillərindən etdiyin tərcümələrin də siyahısı tam deyil. Burada “Oxu, bülbülüm, oxu”, “Qəlbimin gözü ilə”, “Ağlama, məhəbbətim, ağlama” kitablarının və 15 tərcümə kitabının adı var.

– Düz deyirsən, qardaş, bioqrafiyam da kasıb verilib, kitablarımın sayı da tam deyil. Keçənə güzəşt deyərlər. Bunun üçün başqalarında günah görmürəm, öz tənbəlliyim, bəlkə də özümə laqeydliyim üzündən belə olub. Neyləyəsən, keçmişi qaytarmaq mümkün deyil, heyifsilənməyin mənası yoxdur.

– Əziz dost, gəl bunları unudaq...

– Nə deyirəm, unudaq...

– Viloş, əzizim, ilk tanışlığımız yadındadır?

– Əlbəttə ki, heç yaddan çıxarmı o günlər?! O zaman mən Moskvada – M.Qorki adına Ədəbiyyat İnstitutunda oxuyurdum. Bakıya – teleradioya təcrübə keçməyə gəlmişdim. Komitənin sədri Teymur Əliyev (şair Teymur Elçin) məni televiziyanın bədii verilişlər baş redaksiyasına məsləhət gördü. Təklif ürəyimdən oldu. Ancaq bu sevinc çox çəkmədi. Orada üzümə soyuq baxdılar. Bir həftə gəldim-getdim. Nə bir tapşırıq verdilər, nə də oturmağa stul. Yenidən Teymur müəllimə müraciət etmək istəyirdim ki, qarşıma sən çıxdın.

– Hə, yadıma düşdü. Dodağımda siqaret iş otağımdan çıxanda səninlə üz-üzə gəldim. Çəkinə-çəkinə məndən siqaret istədin. Bu, tanışlığımız üçün bir körpü oldu, oradan-buradan danışdıq. Sonra çayxanada oturub xeyli dərdləşdik. O gündən bir-birimizə bağlandıq. Təcrübə günlərində səmimiyyətin, geniş biliyin və xoş, maraqlı söhbətlərinlə teleradio işçilərinin rəğbətini qazandın. Şeirlərin televiziya ekranında, radio dalğalarında səsləndi. Bizim redaksiya üçün də xeyli veriliş hazırladın. Təcrübə müddəti başa çatanda: “Ay eloğlu, – dedin, – sən məni jurnalist elədin”.

Qonorarını hesabladılar – 500 manat. Qol çəkib bu məbləği alanda gözlərinin içinəcən sevinirdin! Əlini çiynimə vurub: “Ay Nahid, – dedin, – indiyəcən heç vaxt əlimə bu qədər pul gəlməyib. Moskvaya çatan kimi sənin sağlığına özümü yaxşıca təzələyib, dostlarımı sevindirəcəyəm. Neçə ildir əynim gözəgəlimli bir kostyum, palto görməyib. İndi isə, əzizim, düş qabağıma. Gedək oturaq Dağüstü parkın kababxanasında. Bir-birimizi yaxşı-yaxşı tərifləyək.

Mən gülümsədim. Sən isə: “Bəs mənə “yaxşı yol” arzulamaq istəmirsən? – deyə ərklə əlini kürəyimə vurdun.

– İstəyirəm, ancaq bir şərtim var.

– Şərtinə quzu kəsərəm.

– Sən mənim qonağım olacaqsan, – dedim, – Mən səndən bir yaş böyüyəm. Elədirmi?

– Elədir.

– Həm də sən tələbəsən.

– Starik, başa düşdüm. Getdik ey, sonrasına baxarıq...”

* * *

Nahid müəllim başqa bir yedə yazır: “Qayınatan, ölməz sənətkarımız, SSRİ xalq artisti İsmayıl Dağıstanlı ilə xoş münasibətimiz var idi. O zaman mən Azərbaycan Televiziyasının ədəbi-dram verilişləri baş redaksiyasının baş redaktoru işləyirdim. İsmayıl müəllim tez-tez redaksiyamızın qonağı olurdu. Hər dəfə iş otağının qapısı ağzında göründəndə, bir qayda olaraq özünəməxsus pafos və aktyor ədası ilə ucadan: – Şairin yaxın dostu, əzizim Nahidə atəşin salamlar! – deyirdi.

İsmayıl müəllim çox xeyirxah insan idi. Yaxşılıq eləməkdən, kiminsə işinə yaramaqdan zövq alırdı. Söhbətlərimizin birində ürək ağrısı ilə: – Vilayətin çörəyi daşdan çıxır, – dedi. – Ailəsini ürəyi istəyən kimi dolandıra bilmir. Mənim də hərdən özümə yazığım gəlir. Azərbaycan səhnəsində Leninin obrazını yaradasan, bu qədər tituların, orden-medalın olsun, qızlarına, nəvələrinə ürəyin istəyən köməyi eləyə bilməyəsən. İndi mənim gedib rayonlarda mühazirə oxuyub, monoloq, şeir deyən vaxtımdır? Bunun müqabilində aldığım nədir? On-on beş manat! Vallah, maddi imkan olsa, Vilayəti çox qayğılardan aralayaram. Daha ailəsini dolandırmaq üçün özünü oda-közə vurmaz, oturub şeirini yazar, tərcüməsini eləyər, kitablarını buraxar. O boyda istedad çırpına-çırpına qalıb.

İsmayıl Dağıstanlı həqiqəti deyirdi. Doğrudan da sən yazdıqlarından, elədiklərindən qat-qat çox əsər yazar, iş görə bilərdin. Neyləməli, Tanrı hər birimizə bir cür qismət verir. Ancaq belə bir fikir də var ki, taleyimizi göydə Allah, yerdə isə özümüz yazırıq. Deyən yordum səni, Viloş, çox danışdım.

– Bilsən necə şad eylədin ruhumu... Yaşa, starik, yaşa. Məni məndən yaxşı tanıdığın üçün, unutmadığın üçün yaşa!

– Sən həmişə yaddaşlardasan. Buna əmin ol, rahat yat, Viloş”.

*(davamı var)*

**Mirzə MƏMMƏDOĞLU**

# HƏYAT BANKI



“Mən artıq bunu bacarmıram, daha növbəti anı düşünmədən bu anı yaşaya bilmirəm. Sən bunu necə edirsən?

Mən ancaq indiki dəqiqələr haqqında düşünürəm, onlarsa əbədidir...”

Dostlarıma sual verdim: “Təəssəvür edin, bir gün içində bank sizə 86400 dollar verir, amma iki şərti var. Birinci şərt – bu pulu günün sonuna qədər xərcləməlisiniz, çünki günün sonunda hesab sıfırlanır, ikinci şərt – bank heç bir xəbərdarlıq etmədən hesabınızı anidən dondura bilər. Bu pulla nə edərsiniz?”

Cavablar fərqli idi, kimisi ev alacağını, kimisi paltar, kimisi sevdiklərinə hədiyyələr alacağını söylədi. Amma gözlədiyim sualı heç kimdən ala bilmədim: niyə məhz 86400 dollar? Niyə başqa rəqəm yox?

Cavab çox sadədir, çünki hər gün bizə 86400 saniyə verilir. Bu bank əslində hər birimizdə var, bu, zamandır.

Bu saniyələr həyat bankının hesabıdır. İstəsən də, istəməsən də axşam olanda sıfırlanır. İstənilən gün də xəbərdarlıq edilmədən bu hesab birdəfəlik bağlana bilər, hər an həyat bitə bilər.

Bəs biz bu hesabın qədrini bilirikmi? Təəssüf ki, çox vaxt, yox. İnsanların çoxu sabahkı günün də özünə aid olduğunu düşünərək bugünün dəyərini gözdən qaçırır. Halbuki sabah heç vaxt gəlməyə də bilər. Həyatın hər günü bizə verilmiş bir hədiyyədir. Həyat hər gün 86400 saniyəlik ömür payı verir bizə. Bu saniyələri necə xərcləyəcəyimiz isə yalnız öz seçimimizdir. Pul yenidən qazanıla bilər, amma vaxt geri qaytarılmaz.

Bu həqiqət o qədər aydındır ki, biz çox zaman onu görmürük sanki. İnsan əsl sərvəti olan vaxtı ucuz şeylərə xərcləyir – mənasız söhbətlərə, sosial şəbəkələrdə bitib-tükənməyən saatlara, boş narazılıqlara. Halbuki hər saniyə ömürdən gedir. Vaxt pulla ölçülməyəcək qədər qiymətlidir. Çox az adam ötən günün fərqindədir və ona dəyər verir.

Əgər həyatın bir ilinin nə demək olduğunu anlamaq istəyirsənsə, bu sualı ilin sonunda imtahandan kəsilmiş tələbədən soruş, bəzən bir tələbə imtahandan kəsilir və anlayır ki, bir saatlıq hazırlıq onun taleyini dəyişə bilərdi. Bəzən bir ata övladının böyüdüyünü görmür, sonra isə itirdiyi illərə görə peşman olur. Bəzən bir xəstə nəfəs uğrunda mübarizə aparır və bir dəqiqənin nə demək olduğunu anlayır. Bəzən bir insan sevdiyini son dəfə görə bilmir və bir anın nə qədər böyük olduğunu dərk edir. Göz yaşları ilə dilənilən vaxtı isə heç bir bank vermir.

Bəs biz niyə gözləyirik? Niyə hər şeyi sabaha saxlayırıq? Sabahın gələcəyinə kimin zəmanəti var? Həyatımızın çox hissəsi “bir gün edərəm” deyə gözləməklə keçir. Deyirik sabahdan idmana başlayacağam, sabahdan yaxşı olacağam, sabahdan öyrənəcəyəm, sabahdan sevəcəyəm. Amma sabah bəlkə də olmayacaq. Həyat bankının qapısını bu gün bağlaya bilərlər.

Əgər bu gün sosial şəbəkədə saatlarla vaxtını itirirsənsə, deməli, həyat bankının pullarını havaya sovurursan. Əgər valideyninə bircə dəqiqə də ayırmırsansa, sabah çox gec ola bilər. Əgər sevdiyinə “səni sevirəm” deməyi sabaha saxlayırsansa, bəlkə də o sabah heç gəlməyəcək.

Həyat sənə hər gün yeni fürsət verir. Hər gün 86400 saniyəlik xəzinə. Amma bu xəzinənin bir şərti var: geri qaytarmaq olmur. Ona görə, indi yaşa. İndi gül. İndi öyrən. İndi sevdiklərini qucaqlayıb yanlarında ol. Çünki sabahın açılıb-açılmayacağını heç kim bilmir. Həyat bankının qapısı bağlandığı an artıq heç nəyi dəyişmək olmayacaq.

Əgər həyatın qədrini bilmək istəyirsənsə gözünü gələcəkdən çək və diqqətini bu günə yönəlt. Çünki yaşadığın anın dəyəri nə qədərini gördüyün, nə qədərini hiss etdiyin və nə qədərini sevdiklərinlə bölüşdüyün qədərdir. Hər kəs üçün eyni saniyə fərqli çəkiyə malik ola bilər. İnsan xoşbəxtliyi təxirə salmadan bu anın içində axtarmalıdır. Çünki gələcək hələ gəlib çıxmayıb, keçmiş isə artıq əldən gedib. Bizim sahib olduğumuz yeganə real varlıq indiki andır.

Ətrafıma baxanda görürəm ki, bu gün insanlar çox vaxt bu həqiqəti unudur. 80-90-cı illərin şəkillərinə baxanda 18-19 yaşlı gənclərin necə sağlam, canlı, iri bədənli göründüklərinə heyran qalıram. O vaxtlar nə oğlanların ailə dərdi vardı, nə də qızların evlənmək qayğısı. Sadə həyat kifayət edirdi, xoşbəxtlik üçün çox şey lazım deyildi. Amma indi... Gənclər qınanmaqdan qorxur. Kimlə sevgili olsa, kimlə evlənsə, dərhal “onun maşını yoxdur, evi belədir, işi elədir” deyə mühakimə olunurlar. Gecə yuxuları qaçan, qərar verməyə qorxan bir nəsil yetişib. Hər kəsin başında eyni suallar dolanır: “Necə olacaq? Necə edəcəyəm? Səhv qərar versəm? Tənqid olunsam?”

Psixoloqlar bu vəziyyəti təsadüfi saymırlar. Onların sözlərinə görə, gənclərin bu qədər cılızlaşmasının səbəbi yalnız fiziki zəiflikdə deyil, beyində baş verən qarışıq duyğulardadır. İnsanın yediyi qida bədənə güc verməyə macal tapmamış beyin artıq min cür narahatlıq, min cür qorxu ilə onu əridib tükəndirir. Gündəlik stress, sosial müqayisə, “başqaları nə deyəcək” düşüncəsi bütün enerjini yeyib bitirir. Əslində bədən zəifləmədən öncə ruh yorulur, ruh yorulanda isə gözlərdəki işıq sönür.

Bəs bunun çarəsi nədir? Çünki ətrafın sözü tükənmir, insanlar həmişə danışacaq. Çarə odur ki, insan diqqətini başqalarının dediyindən çəkib öz həyatına yönəltsin. Əgər biz hər günün 86400 saniyəsini başqalarının düşüncəsinə yox, öz hədəflərimizə və sevdiklərimizə sərf etsək, heç kimin sözü gücümüzü ala bilməz.

Təəssüf ki, çoxları bu saniyələri başqalarının mühakiməsi, bitib-tükənməyən istəklər və süni gözləntilərlə havaya sovurur. Halbuki xoşbəxtlik böyük salonlarda, brend geyimlərdə və bahalı hədiyyələrdə deyil. Xoşbəxtlik sadə bir sözdə, səmimi bir təbəssümdə, sevdiklərinin yanında keçirdiyin anlarda gizlidir. Əgər bu gün balaca şeylərdən sevinc duya bilmirsənsə, sabah milyonların olsa belə xoşbəxt ola bilməyəcəksən.

Odur ki, həyat bankının hesabını boşuna xərcləməyək. Qırmadan, incitmədən, sadə şeylərlə özümüzü xoşbəxt etməyi bacaraq. Çünki sabahın açılıb-açılmayacağını heç kim bilmir.

**Aytən FƏTULLAYEVA**
*Tbilisi Dövlət Universitetinin Dəqiq və təbiət elmləri fakültəsinin 3-ci kurs tələbəsi*

# SOSİAL YARDIM REALLIĞI TƏNBƏLLİK YOX, SİSTEMİN BOŞLUĞUDUR

Bildiyimiz kimi, son illər ölkəmizdə sosial yardım məsələsi daha çox müzakirə yaradır. Dövlət ehtiyacı olan vətəndaşlara maddi dəstək göstərməklə onların həyat şəraitini yaxşılaşdırmaqda kömək edir. Lakin sosial yardım proqramının tətbiqi ilə bağlı bir çox problemlər də ortaya çıxır. Belə ki, bəzi insanlar bu yardımı həqiqətən ehtiyacları olmadan alır və sui-istifadə edir.

“Yeni Yol” qəzetinin yazarlarından olan Çiyalə Osmanovanın “SOSİAL YARDIMIN KÖLGƏSİNDƏ QALANLAR” yazısında da bu mövzuya toxunulur. Məqalədə müəllifin diqqətini çəkən əsas mövzu budur ki, bəzi insanlar sosial yardımı həqiqətən ehtiyac duymadan alır və bu yardımı sui-istifadə edirlər. Müəllif bu halları sərt şəkildə tənqid edir və belə bir nəticəyə gəlir ki, bu davranış həm dövlətin büdcəsinə yükdür, həm də həqiqətən yardıma möhtac insanların haqlarını tapdalayır. Yazıda insanlar evlərini başqasının adına keçirir, çoxlu uşaq dünyaya gətirir və saxta sənədlərlə yardımdan yararlanırlar. Çiyalənin fikrincə, bu, bir növ tənbəllikdir və insanların əziyyət çəkmədən pul qazanmaq istəyi ilə bağlıdır. Lakin məsələ bu qədər sadə deyil. Sosial yardım alan insanların davranışlarını yalnız mənfi işıq altında göstərmək həqiqəti tam əks etdirmir. Həqiqətən ehtiyacı olan çoxlu insanlar var ki, bu yardıma arxalanaraq gündəlik həyatda möhkəm duruş göstərir, ailələrini dolandırır, uşaqlarını təhsildən geri qalmamaq üçün dəstəkləyirlər. Bu baxımdan yalnız sui-istifadə hallarını ön plana çıxarmaq birtərəflidir.

Çiyalənin yazısının bir başqa zəif tərəfi onun emosional tonudur. “Parazit həyat tərzi keçirirlər”, “müftə yeməyə alışıb tənbəlləşiblər” kimi ifadələr oxucuda qıcıq yaradır və müəllifin məsələyə daha çox şəxsi qəzəbini göstərir. Sosial yardım mövzusu ciddi və çoxşaxəli bir məsələdir. Onu yalnız sərt tənqid və emosiyalar üzərində qurmaq oxucunun problemə obyektiv baxışını məhdudlaşdırır.

Müəllif əsasən şəxsi müşahidələrə arxalanır. Lakin rəsmi statistik məlumatlar və ya dövlətin tətbiq etdiyi nəzarət barədə heç bir fakt göstərilmir. Məsələn, yardımı sui-istifadə edənlərin ümumi sayının nə qədər olduğu, bu halların hansı prosedur boşluqlarından yarandığı kimi suallar cavabsız qalır. Əgər bu məlumatlar yazıya əlavə olunsaydı müəllifin arqumentləri daha inandırıcı olardı. Digər tərəfdən, Çiyalə problemin köklü səbəblərinə toxunmur. Sosial yardımın sui-istifadə olunması yalnız yardımı alanların məsuliyyətsizliyi ilə izah edilə bilməz. Burada sistemin zəifliyi, dövlət səviyyəsində nəzarətin tam işləməməsi, eləcə də vətəndaşların fərdi məsuliyyətinə diqqət yetirilməməsi mühüm rol oynayır. Yardım proqramları əgər daha hərtərəfli və sistemli tətbiq olunsaydı sui-istifadə halları xeyli azalardı. Məqalədə həmçinin çıxış yolları göstərilmir. Problem yalnız tənqid etməklə həll olunmur. Oxucuya konkret təkliflər təqdim edilməlidir. Məsələn, dövlət tərəfindən müxtəlif yoxlamalar, yardımı sui-istifadə edənlər üçün cərimələr və fərdi məsuliyyətin artırılması. Bu cür tədbirlər həm yardımı həqiqətən ehtiyacı olanlara çatdırar, həm də sui-istifadə hallarını azaldar.

Müəllifin yazısında balans problemi də diqqət çəkir. Sosial yardımı sui-istifadə edənləri sərt tənqid etsə də həqiqətən yardıma möhtac insanların vəziyyəti göstərilmir. Bu oxucuda yanlış təəssürat yaradır ki, bütün yardım alanlar tənbəl və sui-istifadəçidir. Real həyatda hər iki qrup mövcuddur və bunların fərqləndirilməsi vacibdir. Bundan əlavə, müəllifin şəxsi müşahidəsi ilə yazdığı nümunələr mövzuda ziddiyyət yaradır. Məsələn, müəllif bəzi hallarda yardımı düzgün istifadə edən insanları da müşahidə edir. Lakin bu nümunələri ümumi arqumentə daxil etmir. Bu isə yazıda ardıcıllıq və məntiq çatışmazlığı yaradır.

Yekun olaraq demək olar ki, Çiyalənin məqaləsi maraqlı müşahidəyə əsaslanır və sosial yardımla bağlı aktual bir problemi qabardır. Lakin yazının emosional tonu, birtərəfli yanaşması və faktlardan uzaq olması onu daha çox şəxsi fikir səviyyəsində saxlayır. Əgər müəllif həm yardımı sui-istifadə edənləri, həm



də yardıma həqiqətən möhtac olanları göstərsə, eyni zamanda konkret çıxış yolları təklif etsəydi məqalə həm daha obyektiv, həm də oxucu üçün faydalı olardı. Sosial yardım yalnız “tənbəllik” və “sui-istifadə” məsələsi deyil. Bu, dövlətin sosial siyasəti, cəmiyyətin etik dəyərləri və insanların gündəlik həyat çətinlikləri ilə bağlı bir problemdir. Ona görə də bu mövzuya balanslı, faktlara əsaslanan və praktiki təkliflərlə yanaşmaq vacibdir.

**Validə FƏTULLAYEVA**
*Tbilisi Dövlət Universitetinin Dəqiq və təbiət elmləri fakültəsinin 2-ci kurs tələbəsi*

İCTİMAİ QƏZET ❊ yeniyolqazeti@gmail.com ❊ "ახალი ოდლი" საზოგადოებრივი გაზეთი ❊ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

15 SENTYABR
2025-Cİ İL
№ 16 (233)

Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

# 2025-Cİ İLİN MİLLİ MÜƏLLİM MÜKAFATININ BEŞLİYİ MƏLUMDUR




2025-ci ilin Milli Müəllim Mükafatının 5 finalçısının adı elan olunub. Onlardan biri 30 sentyabrda Milli Müəllim Mükafatının sahibi olacaq. Qalibə müsabiqənin baş sponsoru – Qudavadze-Patarkatsişvili Fondu tərəfindən 15000 lari veriləcək. Finalçıları isə 2025-ci ilin Milli Müəllim Mükafatının əsas dəstəkçisi olan Gürcüstan Bankı mükafatlandıracaq.

***2025-ci ilin Milli Müəllim Mükafatının 5 finalçısı bunlardır:***

- **Elene Betlemişvili** – Qori 3 və 8 saylı ictimai məktəbin ibtidai sinif müəllimi;
- **Nestan Kublaşvili** – Tbilisi 172 saylı ictimai məktəbin gürcü dili və ədəbiyyatı müəllimi;
- **Maia Lapiaşvili** – Dedoplistkaro 1 saylı ictimai məktəbin coğrafiya və vətəndaş təhsili müəllimi;
- **Şalva Mindadze** – Tbilisi 70 saylı ictimai məktəbin tarix müəllimi;
- **Janna Xaçaturyan** – İlia Çavçavadze adına Axalkalaki 3 saylı ictimai məktəbin mən və cəmiyyət, vətəndaş təhsili və vətəndaşlıq fənni üzrə müəllim.

*Qeyd edək ki, bu il Milli Müəllim Mükafatı müsabiqəsinə 142 müəllim qoşulub.*

*Milli Müəllim Mükafatı 2017-ci ilin 13 mayında təsis edilib. Qeyd olunan təşəbbüs Gürcüstanda artıq 9-cu dəfə həyata keçrilir və müəllimlik peşəsinin populyarlaşdırılmasına yönəlmiş – "The Global Teacher Prize" şirkətinin bir hissəsidir.*

*Müsabiqənin baş sponsoru Qudavadze-Patarkatsişvili Fondu, qızıl sponsoru İlia Dövlət Universitetidir. Dəstəkçilər: Gürcüstan Bankı, EPAM Georgia, "Alte" Universiteti, Konsultasiya və Təlim Mərkəzi (CTC).*

*Mənbə: edu.aris.ge*

# BU TARİXLƏRDƏ ŞAGİRD BİR MƏKTƏBDƏN DİGƏRİNƏ KÖÇÜRÜLƏ BİLMƏZ




Şagirdlər üçün məktəbi dəyişmək qaydaları qanunla müəyyənləşdirilib. Yalnız şagirdi qəbul edən məktəbin boş yeri olduğu halda şagirdin həmin məktəbə köçürülməsi mümkündür. Müəyyən tarixdə şagirdin bir məktəbdən digər məktəbə köçürülməsi isə qanunla yolverilməzdir.

***Şagirdin başqa məktəbə köçürülməsi aşağıdakı hallarda qadağandır:***

a) Sentyabrın 1-dən oktyabrın 1-nə qədər;

a1) Təhsilə tədris ilinin başlandığı tarixdən gec başlayan ümumtəhsil müəssisələrinin birinci sinif şagirdlərinə.

Bu qayda təhsilin başlanğıc pilləsində təhsil yaşı dərs ili başlayandan sonra tamam olmuş və tədris ilinin başlanması tarixindən ən azı 1 ay müddətində tədrisə başlamış birinci sinif şagirdlərinə aid deyil.

b) Tədris ili başa çatana qədər 30 təqvim günü ərzində.

c) 12-ci siniflər üçün 12-ci sinfin 2-ci rübündə.

Məktəbi dəyişmək ümumtəhsil müəssisəsinin avtorizasiyanı itirdiyi hallara aid deyil.

Obyektiv səbəblər olan halda Gürcüstan Təhsil, Elm və Gənclər Nazirliyinin şagirdi qəbul edəcək ümumtəhsil müəssisəsinin yerləşdiyi ərazi orqanı – təhsil resurs mərkəzi, muxtar respublika ərazisində isə müvafiq muxtar respublikanın təhsil nazirliyi şagirdin digər məktəbə keçirilməsi haqqında qərar qəbul etməyə səlahiyyətlidir.

Ümumtəhsil müəssisəsinin məktəbi dəyişmiş şagirdin qəbul olmasından sonra milli tədris planı ilə tətbiq edilmiş səviyyəyə uyğun olmasını və ayrıca fənndə/fənlərdə şagirdlə fərdi işləmək ehtiyacını müəyyən etmək məqsədilə imtahanla şagirdin bilik və bacarıqlarını yoxlamaq səlahiyyəti var.

Ümumtəhsil müəssisəsi imtahanın nəticələri əsasında şagirdin digər məktəbə köçürülməsindən imtina etmək, yaxud elektron şəkildə şagirdin digər məktəbə köçürülməsini həyata keçirmək proseduruna başlamaq səlahiyyətinə malikdir.

*Mənbə: etaloni.ge*

# 2025-Cİ İLİN BİRİNCİ YARISINDA KVEMO KARTLİDƏ TƏBİİ ARTIMDA AZALMA OLUB




Gürcüstan Milli Statistika Xidmətinin məlumatına əsasən, 2025-ci ilin birinci yarısında ölkədə 9925 nikah müqaviləsi bağlanıb, 6456 boşanma halı qeydə alınıb.

2025-ci ilin yanvar-iyun aylarında diri doğulan körpələrin sayı 17719 nəfər təşkil edib. Həmin dövrdə ölkədə 22718 nəfər dünyasını dəyişib.

Hesabat dövründə müsbət təbii artım göstəricisi yalnız Tbilisi şəhərində (406 nəfər) və Acara Muxtar Respublikasında (296 nəfər) qeydə alınıb.

***Azərbaycanlıların sıx yaşadıqları Kvemo Kartli bölgəsində də təbii artımda azalma olub. Hesabat dövründə Kvemo Kartlidə 219 nəfər körpə dünyaya gəlib.***

***Qeyd edək ki, 2024-cü ildə Kvemo Kartlidə təbii artım 292 nəfər, 2023-cü ildə isə 719 nəfər olub.***

# GÜRCÜSTAN İQTİSADİYYATINA BİRBAŞA XARİCİ İNVESTİSİYALARIN HƏCMİ AZALIB




2025-ci ilin ikinci rübündə Gürcüstan iqtisadiyyatına birbaşa xarici investisiyaların həcmi 580,1 milyon dollar təşkil edib ki, bu da 2024-cü ilin eyni dövrü ilə müqayisədə 12 faiz azdır. Bu barədə Gürcüstan Milli Statistika Xidməti məlumat yayıb.

Bildirilib ki, qeydə alınan göstərici, əsasən təkrar investisiya və borc öhdəliklərinin azalması ilə bağlıdır.

Məlumata görə, investisiyaların 21,3 faizi nizamnamə kapitalı (123,6 milyon dollar), 80,4 faizi isə yenidən investisiya qoyuluşu (466,6 milyon dollar) hesabına formalaşıb. Ən böyük investor ölkələri arasında Böyük Britaniya 242,7 milyon dollarla (41,8 faiz) birinci, Türkiyə 54 milyon dollarla (9,3 faiz) ikinci və Çexiya 863 milyon dollarla üçüncü yerdədir.

Bu üç ölkənin payı ümumi birbaşa xarici investisiyaların 57,7 faizini təşkil edir.

Təsisçi:
"Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı"

Redaktor:
Azər MUSAOĞLU
Yayım direktoru:
Hacı BƏKİROĞLU
Qrafik dizayn:
Elsevər ƏHMƏDOV

ÜNVAN: Rustavi şəh., Şartava küç. 12 b.
TEL: (+995) 555 96 18 68
599 54 12 92
İMEYL: yeniyolqazeti@gmail.com

Yazılar yalnız elektron variantda qəbul edilir və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.